**2 saylı ƏVİ üzrə quraşdırılmış POS-terminalların sayı 4 dəfə artıb**

Vergi orqanları tərəfindən nağdsız ödəniş vasitələrindən, o cümlədən POS-terminallardan, plastik kartlardan və digər müasir elektron ödəniş xidmətlərindən istifadənin üstünlükləri istiqamətində həyata keçirilən məlumatlandırma tədbirləri davam etdirilir. Bu tədbirlər çərçivəsində 2 saylı Ərazi Vergilər İdarəsinin əməkdaşları tərəfindən də vergi ödəyicilərinə elektron ödəniş xidmətlərindən istifadənin üstünlükləri barədə bukletlər paylanmış və istifadə qaydaları ilə bağlı maarifləndirmə işləri aparılmışdır.
Görülən işlər nəticəsində cari ilin fevral ayının 1-dən may ayının 1-nə kimi 2 saylı Ərazi Vergilər İdarəsi üzrə quraşdırılmış POS-terminalların sayı 4 dəfə artaraq 186-dan 731-ə çatdırılmışdır. POS-terminalların quraşdırılması ilk növbədə Sumqayıt şəhərinin mərkəzi küçələrində, dəniz kənarında yerləşən pərakəndə ticarət, ictimai-iaşə obyektlərində, mehmanxana və hotellərdə, restoranlarda, kafelərdə, istirahət, idman və əyləncə mərkəzlərində, geyim mağazalarında, supermarketlərdə, məişət texnikası avadanlıqları, mobil telefonların satışı ilə məşğul olan mağazalarda, ətriyyat satışı, tibb və fitnes mərkəzlərində təmin edilmişdir.
2 saylı ƏVİ-nin rəisi Abbas İsmayılov  qəzetimizə acıqlamasında POS-terminalların quraşdırılması ilə bağlı işlərin təşkilinin koordinasiyalı şəkildə qurulduğunu, bu zaman emitent banklarda hüquqi və fiziki şəxs olan sahibkarlar tərəfindən hesabın açılmasına, POS-terminal yerləşdiriləcək obyekt sahibinə Vergi şəhadətnaməsi (VÖEN) və vergi orqanlarında uçota alınması haqqında arayışın nüsxəsinin verilməsinə, eləcə də terminalların quraşdırılması ilə bağlı qarşıya çıxan çətinliklərin aradan qaldırılmasına köməkliklər göstərildiyini qeyd etmişdir. İdarə rəisi əlavə etmişdir ki, 2 sayli ƏVİ-nin fəaliyyət dairəsinə daxil olan ərazilərdə, xüsusilə də Sumqayıt şəhərində POS-terminalların quraşdırılması işi davam etdirilir.

Aytən NƏBİYEVA